# TEXNİKİ TAPŞIRIQ

Servis xidmətləri körpülü kranların fasiləsiz, təhlükəsiz və normativ tələblərə uyğun istismarını təmin etmək, nasazlıqların qarşısını almaq, avadanlığın istismar müddətini uzatmaq və qəza risklərini minimuma endirmək məqsədi daşıyır.

***Ümumi tələblər:***

- Kranlar üçün planlı texniki xidmət qrafiki Servis şirkəti tərəfindən təqdim edilməlidir.
- Texniki xidmət aylıq, rüblük və illik baxışları əhatə etməlidir.
- Servis işlərin həcmi:
  - Vizual baxış
  - Mexanizmlərin yoxlanılması
  - Yağlama işləri
  - Elektrik sisteminin yoxlanması
  - Təhlükəsizlik sistemlərinin testi
  - Tam texniki diaqnostika
  - Yük altında sınaq
- Hər bir servis baxışı zamanı kranın metal konstruksiyasındakı deformasiyalar və korroziya halları vizual və instrumental yolla yoxlanılmalıdır.
- Yük qaldırma kanatlarının (trosların) aşınma dərəcəsi ölçülməli və standartdan kənar aşınma (üzülmə, incəlmə) aşkarlandıqda dərhal dəyişdirilməlidir.
- Kranların əyləc sistemləri yük altında test edilməli və lazımi tənzimləmə işləri aparılmalıdır.
- Pultla idarəetmə sisteminin sabit işləməsi mütəmadi yoxlanılmalıdır.
- Ağır yüklərlə işləyən kranlar üçün bütün daşıyıcı elementlərdə (tir, araba) çatlara qarşı yoxlama aparılmalıdır.
- Elektrik mühərrikləri və reduktorlar yüksək yüklənməyə görə mütəmadi diaqnostikadan keçirilməlidir.
- Servis şirkəti ehtiyat hissələrinin daimi mövcudluğunu təmin etməlidir.
- Dəyişdirilən bütün ehtiyat hissələri (troslar, kontaktorlar, təkərlər və s.) orijinal və ya istehsalçı tərəfindən təsdiq olunmuş analoqlar olmalıdır. Yerli istehsal olan ehtiyat hissələrinin tətbiqinə yalnız onların texniki göstəricilərinin orijinal hissəyə uyğunluğu təsdiq edildikdən, zəmanət sənədi təqdim olunduqdan və Sifarişçi ilə İcraçının yazılı qarşılıqlı razılığı alındıqdan sonra icazə verilir.
- Əsas detallar üçün minimum ehtiyat anbarı saxlanılmalıdır.
- Hər servis işindən sonra texniki akt (təhvil-təslim aktı) tərtib edilməlidir.
- Aşkar olunmuş nasazlıqlar və görülmüş tədbirlər sənədləşdirilməlidir.
- Təhlükəsizlik sistemlərinə xüsusi diqqət yetirilməlidir
- Servis xidməti ixtisaslı mütəxəssislər tərəfindən həyata keçirilməlidir.
- Servis xidmətləri aşağıdakı normativ sənədlərin tələblərinə uyğun olaraq həyata keçirilməlidir:
  - ISO standartları (xüsusilə ISO 9927 – kranların yoxlanılması üzrə tələblər rəhbər tutulmalıdır.)
  - Yükqaldırma kanatlarının (trosların) yoxlanılması, qiymətləndirilməsi və istismardan çıxarılması ISO 4309 standartının tələblərinə uyğun olaraq həyata keçirilməlidir.

  - Həmçinin aşağıdakı normativ sənədlər rəhbər tutulmalıdır:
  - “Yükqaldırıcı qurğuların təhlükəsiz istismarı qaydaları”
  - Elektrik qurğuların istismar qaydaları
  - Əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydaları.
- Nasazlıqların aradan qaldırılması üçün operativ servis xidməti təmin edilməlidir.
- Sifarişçi tərəfindən sorğu göndərən andan xidmət 1 (bir) iş günü ərzində (və ya müqavilədə razılaşdırılacaq  müddətdə) aradan qaldırmalıdır.
- Təchizatçı zəmanət müddətində pulsuz servis xidməti göstərməlidir (minimum 12 ay)

Fəaliyyət cədvəli

| *Maddə №.* | *Xidmətlərin təsviri* | | *İcra tarixi* | *Ölçü vahidi* | *Miqdar* | *Vahidin qiyməti* | *Cəm* |
|---|---|---|---|---|---|---|---|
| **1.** | **"Bakı Metropoliteni” QSC-nin istismarında olan müxtəlif növ kranlara texniki xidmətin satın alınması (7 ədəd kran üçün), o cümlədən:** | | Satınalan təşkilat tərəfindən sorğu göndərən andan xidmət 1 (bir) iş günü ərzində (və ya müqavilədə razılaşdırılacaq müddətdə) aradan qaldırmalıdır. Ümumi xidmət 12 ay ərzində həyata keçməlidir. | ay | 12 | | |
| 1.1 | Körpülü kran 5 ton (2 ədəd) | Yük qaldırma qabiliyyəti: 5 ton | | | | | |
| | | Körpünün keçid uzunluğu (prolet): 6 - 60 metr | | | | | |
| | | Qaldırma hündürlüyü: 3 - 12 metr arası | | | | | |
| | | Kabinadan idarəetmə — operator kabinədən bütün hərəkətləri idarə edir | | | | | |
| | | İş rejimi - intensiv iş | | | | | |
| | | Elektrik təchizatı: 380 V, 50 Hz üç fazalı (standart sənaye gərginliyi). | | | | | |
| | | Konstruktor növü: iki tirli körpülü kran | | | | | |
| 1.2. | Körpülü kran 10 ton (1 ədəd) | Yük qaldırma qabiliyyəti: 10 ton | | | | | |
| | | Körpünün keçid uzunluğu (prolet): 6 - 60 metr | | | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Qaldırma hündürlüyü: 3 - 12 metr arası | | | | | |
| | | Kabinadan idarəetmə — operator kabinədən bütün hərəkətləri idarə edir | | | | | |
| | | İş rejimi - intensiv iş | | | | | |
| | | Elektrik təchizatı: 380 V, 50 Hz üç fazalı (standart sənaye gərginliyi). | | | | | |
| | | Konstruktor növü: iki tirli körpülü kran | | | | | |
| 1.3. | Körpülü kran 5 ton (1 ədəd) | Əsas qaldırıcı motor tipi 4D112Mb4sx-12/2ULTT Kranın (körpünün) hərəkəti 5/20 m/dəqArabacığın hərəkəti 5/20 m/dəq Yükqaldırma qabiliyyəti: Əsas mexanizm 5 T Qarmaqların qalxma hündürlüyü: Əsas mexanizmin qarmağı 10 m Qarmaqların qalxma sürəti: 0,8/5.0 və ya 1/4 m/dəq - Əsas qarmaq 1/4 m/dəq Kranın aşırımının ölçüsü 19,440 mKranın tam çəkisi 8,842 T Körpü hissənin çəkisi 6,850 TArabacığın çəkisi (mexanizmlərlə birlikdə) 692 kqKranın hərəkət qollarının çəkisi 1300 kq Elektrik göstəricilər(AC): U= 380-415 V(50Hz)Tros: | | | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | L=44m,diametr=10mm,<br>möhkəmlik - 200 $kg/mm^2$ | | | | | |
| 1.4. | Tək tirli körpülü kran 2.5 ton (1 ədəd) | Əsas gərginlik 380-400 v 50 HZ V/Hz<br>İdarə etmə növü: Uzaqdan və kabel idarə etmə<br>Yük qaldırma qabiliyyəti (Q) 2.5 ton<br>Qaldırma hündürlüyü (H) 4 m<br>Körpünün aşırımı (S) 8 m<br>Kranın gediş yolu (L) 20 m<br>İş mühiti :Qapalı sahə mühafizə sinifi: IP54 | | | | | |
| 1.5. | Yerdən idarə olunan körpülü kran 10 ton (1 ədəd) | Faydalı yükqaldırma qabiliyyəti, t - 10<br>polispastın qatılığı - 4/1<br>qaldırma hündürlüyü, - 8 | | | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | m<br>şaquli yaxınlaşma (monorelsin dayaq səthindən qarmağın yuxarı vəziyyətinə qədər şaquli məsafə), mm - 1380 mm baza, - 280/565 mm<br>yolun növü və profili - iki relsli<br>yolun maksimum mailliyi 3%$_0$<br>Sınaq yüklərinin kütləsi, t (kN):<br>statistik sınaqlar zamanı - 1,25 Q nom<br>dinamik sınaqlar zamanı - 1,1 Q nom<br>Qaldırma sürəti: 4 m/dəq<br>Hərəkət sürəti: 20 m/dəq<br>Kranın idarəetmə üsulu - asma idarəetmə pultu ilə<br>Kranın cərəyanla təchizatı üsulu - kabel Elektrik göstəricilər: Qida gərginliyi :380V(3 faza), idarəetmə gərginliyi:24V<br>Kranın kütləsi, kq - 822. | | | | | |
| 1.6. | Körpülü kran 10 ton (1 ədəd) | İşləmə sahəsi: Qapalı<br>Orta temperatur: -10...+40° C<br>İşləmə rejimi: IP 54<br>Yük qaldırma qabiliyyəti (Q) 10.000 kq<br>Qaldırma yüksəkliyi (H) 8.000 mm<br>Körpünün aşırımı (S) | | | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 13.500 mm<br>Kranın gediş yolu (L) 105.000 mm<br>Qaldırma mexanizmi tipi: GMD30 2 3 8 4/1<br>Qaldırma sürəti : 1/4 m/dəq<br>Mühərrikin qaldırma gücü : 9.5 kVt<br>Kanatın diametri : 14 mm<br>Arabanın sürəti: 5/20 m/dəq<br>Arabacığın hərəkət mühərriki: TG 16 1400<br>Körpünün təkərinin diametri: 200<br>İdarə etmə növü: kabinadan və yerdən idarəetmə<br>Qidalandırıcı gərginlik: 380 V 50 Hz<br>İdarə etmə gərginliyi: 24 V AC | | | | | |
| **Cəmi:** | | | | | | | |
| **ƏDV-18%:** | | | | | | | |
| **Yekun məbləğ (manatla):** | | | | | | | |